# 40 il sonra...

*"Keçən günlərimi qaytaraydılar,*
*Gələn günlərimi qurban verərdim".*

Elza İbrahimovanın Rəfiq Zəkanın sözlərinə bəstələdiyi mahnıdakı bu sözlərin əsil mənasını mən indi anlayıram.

...1977-ci ilin may ayında Qəbələ şəhər 1 nömrəli tam orta məktəbi bitirmişəm. Həmin vaxtdan Mingəçevir şəhərində yaşadığıma görə ötən illər ərzində hər dəfə dəvət olunmağıma baxmayaraq sinif yoldaşlarımla görüşə gedə bilməmişdim. Nəhayət, 40 il sonra- bu il mayın 20-də təşkil olunmuş görüşə getmək mənə nəsib oldu.

Təyin olunan yerə nəvəm Ağgünlə gəldim. Həyəcandan özümə yer tapa bilmirdim. 40 il az müddət deyildi. 10 il bir sinifdə oxuduğum, uzun müddət görmədiyim sinif yoldaşlarımı necə tanıyacağımı düşünürdüm.

Çox gözləməli olmadım. Məktəbin həyətində elə bil kimisə axtaran, saçları tamam ağarmış bir kişi gördüm. Diqqətlə baxsam da onu tanıya bilmədim. Ta ki, özünü təqdim edənə kimi. Demə bu beşinci sinifdən sonra bizimlə oxumağa başlayan Fərhad Eyvazov imiş. Sonra İlhamla, Knyaz gəldilər. Beləcə yavaş-yavaş sinfimizin oğlanları yığışmağa başladılar. O anda yaşadığım hissləri təsəvvür etmək çətindir. Onlarla tanış olduqca gözlərim dolur, qəhərdən boğulurdum.

...İllər öz işini görmüş, mənim tanıdığım uşaqlardan əsər-əlamət qalmamışdı. Təkcə adlarından savayı. Arifin dəcəlliyi, Səhrabın mehribanlığı, Namiqin nəvəmə qarşı canıyananlığı, Mehmanın, Azərin, Kamilin, Zahidin, Muradın, Maarifin, Tərlanın, Əzizin, Habilin, Mehdinin və adını çəkə bilmədiyim digər sinif yoldaşlarımın diqqəti məni çox kövrəltmişdi..



Nədənsə qızlarımız gözə dəymirdi. Sən demə, uzaq rayonlardan gələnlərin bir çoxunun vaxtında çata bilməyəcəyini nəzərə alaraq görüş vaxtını ertəsi günə keçiriblərmiş. Lakin bundan xəbəri olmadığına görə görüşə gələn yoldaşlarımızla illərin həsrətini, keçən zaman içərisində həyatımızda nələrin baş verdiyini öyrəndik, sevincimizi, kədərimizi bölüşdük.

Ən maraqlı an isə mənim birinci sinifdən onuncu sinfə kimi hər il sinif yoldaşlarımızla birlikdə çəkdirdiyimiz şəkilləri təqdim etdiyim vaxt idi. Hər kəs çox sevinmişdi...

Ertəsi gün sinfimizin qızları ilə görüşümüz baş tutdu. Əvvəlcə aramızdan vaxtsız getmiş sinif yoldaşlarımızın və üzərimizdə əvəzolunmaz haqqı olan müəllimlərimizin əziz xatirəsini yad etdik. Tədbir maraqlı təşkil olunduğu üçün biz vaxtın necə keçdiyini hiss etmədik.

Nəhayət, ayrılıq zamanı gəlib çatdı. Bir-birimizdən ünvanlarımızı, əlaqə telefonlarımızın nömrələrini götürdük .

Unudulmaz bir günün yaddaşımıza həkk olunmasına səbəb olan bu görüş mənim xatirimdə kövrək təəssürat, silinməz və müqəddəs duyğular yaratdı. Əvvəlki görüşlərə gələ bilmədiyim üçün təəssüfləndim.

Qayğısız məktəb illəri film kimi gözlərimin önündə canlandı. Doğrudan da, həyatın hər bir anı dəyərləndirilməlidir...

✍ **Sevil ŞƏFİYEVA.**

## 2017-ci ilin avqust ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə yaddaş

2017-ci ilin iyul ayı üzrə vergi ödəyiciləri tərəfindən tədiyəçisi olduqları

Əlavə dəyər vergisi bəyannaməsi,
Aksiz bəyannaməsi,
Yol vergisi bəyannaməsi,
Mədən vergisi bəyannaməsi,
Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsi və
Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi
cari ilin avqust ayının 21-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş verginin bəyannaməsi
cari ilin avqust ayının 21-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssisələr
2017-ci il üzrə hesablanmış Torpaq vergisinin yarısını cari ilin avqust ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
2017-ci ilin 3-cü rübü üzrə hesablanmış əmlak vergisinin cari ödəmələrini cari ilin avqust ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Vergilər avqust ayında ödənilir, bəyannamə rüblük olaraq oktyabrın 20-dən gec olmayaraq təqdim edilir:

Muzdlu işlə əlaqədar 2017-ci ilin iyul ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin avqust ayının 21-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri isə 3-cü rüb üzrə bəyannaməni cari ilin oktyabr ayının 20-dən gec olmayaraq təqdim edirlər).

Xüsusi notariusların 2017-ci ilin iyul ayı üzrə hesabladığı gəlir vergisi cari ilin avqust ayının 21-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

* * *

Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün ödənilməmiş vergilərin 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).

Hörmətli vergi ödəyiciləri, Bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı (www.e-taxes.gov.az) vasitəsi ilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Bununla vaxtınıza qənaət etmiş olarsınız.

## «Qəbələ» mövsümün ilk turuna hazırlaşır

"Qəbələ" 2017/18-ci il mövsümünün hazırlığını davam etdirir. Komandamız bu həftə start götürəcək Topaz Premyer Liqasına Bakıda hazırlaşır. Həmyerlilərimiz avqustun 7-dən paytaxtdakı Bakı Olimpiya Stadionunda hazırlıq mərhələsini keçir. Məşqlərini ölkənin ən böyük arenasında gerçəkləşdirən "Qəbələ" "İnter"lə ilk turun səfər matçını avqustun 12-də keçirəcək.

### Bunu bilirsinizmi?

## Duz mikrob öldürücüdür

Gündəlik həyatımızın bir parçası olan duz insan orqanizmi üçün çox faydalıdır. Duz bədənin turşu-qələvi tarazlığını qoruyur. Təzyiqi aşağı xəstələrə duzlu yemək və içki verilərək təzyiq yüksəldə bilir. Süfrə duzu sidik əmələ gəlməsini təmin edir. Sidik yaranmadan isə maddələr mübadiləsinin təhlükəli son məhsulları çölə atıla bilməz. Duz eyni zamanda antiseptik, yəni mikrob öldürücüdür. Qidaların saxlanmasında, şoraba və duzlamalarda istifadə edilə bilər.

Duzun gündəlik yediyimiz qidalarda çox istifadə edildiyi zaman insana zərər verə, yüksək qan təzyiqinə, ürək-damar xəstəliklərinə gətirib çıxara bilər. Həddindən artıq duz istehlakı orqanizmdən kalsiumun çıxarılmasını sürətləndirir. Sümüklərsə kalsium itkisinə, kövrəkliyə gətirir. Kalsium itkisi sümük əriməsi (osteoporoz) və sümüklərin qırılma riskini artırır.

Pəhriz saxlayan şəxslərin duz istehlakına diqqət etməsi vacibdir. Çünki çox duz bədəndə maye toplanmasına gətirib çıxarır və bu vəziyyət adamda şişkinlik hissinə səbəb ola, həmçinin hamilə qadınlarda sağlamlıq problemləri törədə bilər.


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti
qəzetinə
2017-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.
Yarımillik abunə qiyməti 15 manatdır.
Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.
Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.
Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56


## ELAN

Azərbaycan Respublikası Daxili İşlər naziri general-polkovnik cənab Ramil Usubov tərəfindən 26 avqust 2017-ci il tarixdə Şəki şəhərində bölgə üzrə vətəndaşların qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur. Vətəndaşlar daxili işlər orqanlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı Qəbələ Rayon Polis Şöbəsinə müraciət etməklə qəbula yazıla bilərlər.

**Qəbələ Rayon Polis Şöbəsi**

## İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Yemişanlı kənd sakini **Başirov Ramiz Məmməd oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0074 nömrəli (kod 40615048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri üzrə Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Qurbanov Faiq Rəşid oğluna** verilmiş 7 mart 2015-ci il tarixli RX seriyalı 0592582 nömrəli **hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış və torpaq sahəsinin planı və ölçüsünə dair sənəd** itdiyi üçün etibarsız sayılır.

Kicik Pirəli kənd sakini **Cəbrayılov Tahir Zeynal oğluna** Bakı şəhəri Rəsulzadə qəsəbəsi İ. Hacıyev küçəsi 58 Q ünvanda yaşayan Rzayev Kənan Yaşar oğlu tərəfindən VAZ-21074 markalı, 10 SK 057 dövlət nömrə nişanlı avtomobili idarə etmək üçün verilən **etibarnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 3 saylı qərarı ilə Qəbələ şəhər sakini **Osmanov Şahvələd Süleyman oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 063 F nömrəli (kod 40601004) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 19 yanvar 1998-ci il tarixli 13 saylı qərarı ilə Çarxana kənd sakini **İslamova Sənubər İlyas qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 160 G nömrəli (kod 40604048) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.


Redaktor: Varis Yaqubov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.